


# 9 yeni şəhər, 300-dən çox kənd və qəsəbə

## Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına Qarabağ və Şərqi Zəngəzurda nadir və misli görünməmiş yenidənqurma modeli tətbiq edir

"2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə quruq. Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misli görünməmiş bir yenidənqurma modelidir".

Azərbaycan Prezidentinin təşəbbüsü ilə Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə bu fikirləri səsləndirən İlham Əliyev hər kəsin diqqətinə çatdırıb ki, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük qayıdış" proqramının icrasına başlanılıb.

İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük Zəfərdən sonra yaranmış yeni reallıqlara uyğun addım atan Prezident İlham Əliyev işğaldan azad edilən torpaqlarımızda reallaşdırdığı yeni layihələrlə bir daha dünyaya Azərbaycanın iqtisadi qüdrətini nümayiş etdirir. Çünki bu yerlərimizə yeni nəfəs gətirir, həyat qaynamağa başlayır.

Prezident İlham Əliyevin tapşırıqları əsasında Qarabağ və Şərqi Zəngəzurun "yaşıl inkişaf" konsepsiyası üzərində bərpası, "ağıllı kənd", "ağıllı şəhər"lərin yaradılması ümumilikdə Azərbaycanın iqtisadi qüdrətini dünyaya nümayiş etdirir. 30 ildə daşı daş üstündə qoymayan ermənilər də şahidlik edirlər ki, İlham Əliyev bu torpaqlarda möcüzələr yaradır.

Böyük Zəfərdən sonra geniş tikinti-quruculuq meydanına çevrilən bölgədə bütün infrastrukturlar yenidən qurulur. Yeni avtomobil və dəmir yolları, körpülər, tunellər, hava limanları, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir, mədəni və dini abidələrimiz bərpa edilir. Bütün bunları isə İlham Əliyevin dediyi kimi, Azərbaycan dövləti heç kimdən yardım almadan yalnız öz iqtisadi gücü hesabına həyata keçirir.

Ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlarda 11 su-elektrik stansiyası inşa edilib. Ümumi uzunluğu 2241 kilometr təşkil edən 19 avtomobil yolunun layihələndirilməsi və tikintisi işləri, Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar işlərin yerinə yetirilməsi davam etdirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parklarında ümumilikdə 18 sənaye müəssisəsi qeydiyyata alınıb. Kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatı qeydiyyatdan keçib.

Son iki ildə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına ümumilikdə 6,5 milyard manat vəsait yönəldilib.

Qeyd edək ki, yenidənqurma prosesində Azərbaycan bir çox xarici ölkələrlə tərəfdaşlığını davam etdirməkdədir. Bölgədə həyata keçirilən tikinti-quruculuq prosesində qardaş Türkiyə Respublikasının iri şirkətləri fəaliyyət göstərir. Prezident İlham Əliyev martın 16-da Ankara zirvə görüşündə bu məsələyə bir daha toxunaraq vurğulayıb ki, yenidənqurma prosesində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Bu günə qədər Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur. Prezident Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlarımıza üç dəfə səfər edib, Şuşa, Füzuli, Zəngilan və Cəbrayılda olub.

Bununla yanaşı, işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən məktəb, Qazaxıstan tərəfindən isə yaradıcılıq mərkəzi inşa olunub.



Azərbaycanın öz əzəli torpaqlarında gördüyü möhtəşəm işlər göz qabağındadır. Bunu Qarabağa, Şərqi Zəngəzura səfər edən xarici qonaqlar da təsdiqləyirlər. İki il ərzində müxtəlif vaxtlarda həmin ərazilərə baş çəkənlər dəyişiklikləri, həyata keçirilən işləri gördükcə təəccüblərini gizlədə bilmirlər. Belə qısa zamanda dövlətimizin ermənilər tərəfindən viran qoyulmuş ərazilərimizi necə cənnətməkana çevirdiyini görüb bu heyrəti gizlətmək mümkün də deyil.

Göründüyü kimi, Qarabağı 44 günə "dəmir yumruq"la düşməndən təmizləyən Ali Baş Komandan indi dəmir iradə ilə 30 il ərzində viran qoyulan yurd yerlərimizi möhtəşəm yenidənqurma işlərini Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına, yəni heç kimdən maddi yardım almadan həyata keçirir.




Bunu şərtləndirən amil isə iqtisadi müstəqillikdir. Məhz bu iqtisadi müstəqilliyin yaratdığı reallıq fonunda ötən il ölkəmizdə ümumi daxili məhsul 4,6 faiz artıb, ölkənin valyuta ehtiyatları il ərzində 5,3 milyard dollar artaraq 58,5 milyard dollara yüksəlib.

İqtisadi imkanları güclənən Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda apardığı bərpa, yenidənqurma prosesi illərlə yağmalanıb dağıdılan, viran qoyulan yurd yenidən qurur, keçmiş məcburi köçkünlərin Qarabağ və Şərqi Zəngəzura qaytarılması üçün kompleks tədbirlər görür.




Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən mədəni və dini abidələrimiz bərpa olunur, bir çoxu yenidən tikilir. Erməni işğalından azad etdiyimiz ərazilərə dövlətimiz öz gücü, öz vəsaiti və doğru planları ilə yeni həyat gətirir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*